# Təbib

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. http://www.amu.edu.az № 22 (1661) 29 dekabr 2017 - ci il Qiymәti 50 qəpik


# Dünya azərbaycanlılarına



**Əziz həmvətənlər!**

**Hörmətli soydaşlar!**

**Milli birlik və Vətənə məhəbbət kimi nəcib duyğuları təcəssüm etdirən 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində hər birinizi ürəkdən salamlayır və ən xoş arzularımı çatdırıram.**

Qəlbi həmişə doğma yurda sevgi hissi ilə döyünən bütün soydaşlarımızın milli-mənəvi dəyərlərə bağlılığı və Azərbaycanla əlaqələrinin daha da möhkəmləndirilməsi daim dövlətimizin diqqət mərkəzindədir. Ümummilli lider Heydər Əliyevin irəli sürdüyü azərbaycançılıq məfkurəsinə əsaslanan ardıcıl tədbirlər xaricdə yaşayan həmvətənlərimizin daha sıx birliyinin təşəkkül tapmasına təkan vermiş, ölkəmizin dünya dövlətləri ilə qarşılıqlı faydalı münasibətlərinin inkişafında diaspor təşkilatlarının rolunu xeyli gücləndirmişdir.

Bu gün Azərbaycan Respublikası böyük iqtisadi, siyasi və mədəni potensiala malikdir. Bu potensial dövrün mürəkkəb çağırışlarına adekvat cavab vermək üçün bizə geniş imkanlar açır. Müstəqil dövlət kimi öz yolunu inamla davam etdirən ölkəmizdə qlobal maliyyə-iqtisadi böhranın təsirləri aradan qaldırılmış, sosial-iqtisadi inkişafın dayanıqlığı və davamlı ictimai-siyasi sabitlik təmin olunmuşdur. Təşəbbüskarı olduğumuz transmilli layihələrin həyata keçirilməsində yüksək nailiyyətlər qazanmışıq. Nəhəng neft şirkətləri ilə “Əsrin müqaviləsi”nin 2050-ci ilə qədər uzadılmasına dair sazişin imzalanması, Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi, Şimal-Cənub nəqliyyat dəhlizinin ölkəmizdən keçən hissəsində işlərin başa çatdırılması respublikamızın tərəqqisi və xalqımızın rifahının yüksəlməsinə xidmət edir, Azərbaycanın dünyadakı geostrateji əhəmiyyətini artırır.

Mədəniyyətlərarası dialoqun təşviqi və ümumbəşəri problemlərin həlli sahəsində dövlətimizin ardıcıl və qətiyyətli mövqeyi beynəlxalq aləmdə rəğbət hissi ilə qarşılanır. 2017-ci ilin ölkəmizdə “İslam Həmrəyliyi İli” elan edilməsi, IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun və IV İslam Həmrəyliyi Oyunlarının uğurla keçirilməsi Azərbaycanın multikulturalizmə və tolerantlıq ənənələrinə sadiq olduğunu bütün dünyaya bir daha nümayiş etdirdi.

Biz Vətənimizin hərtərəfli inkişafı ilə bağlı qarşıya qoyduğumuz məqsədlərə çatmaq üçün əzmlə çalışırıq. Ölkəmizin beynəlxalq əlaqələrinin genişlənməsində, qədim və zəngin mədəniyyətinin təbliğində, Azərbaycana qarşı təxribatçı əməllərin qarşısının alınmasında diaspor təşkilatlarının da üzərinə mühüm vəzifələr düşür. Buna görə də xaricdə yaşayan həmvətənlərimiz milli maraqlarımızın müdafiəsi naminə azərbaycançılıq ideyası ətrafında sıx birləşməlidirlər. İnanıram ki, sizin məqsədyönlü və birgə fəaliyyətiniz gücümüzü daha da artıracaq, hamımızı dərindən narahat edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə nizamlanmasına, ölkəmizin ərazi bütövlüyünün bərpasına sanballı töhfəsini verəcəkdir.

Sizə bu yolda möhkəm iradə və mütəşəkkillik, şəxsi həyatınızda səadət və firavanlıq arzulayıram.

**Bayramınız mübarək olsun!**

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 25 dekabr 2017-ci il.

## BU SAYIMIZDA


İMTAHAN SESSİYASINA HAZIRLIĞIN VƏZİYYƏTİ MÜZAKİRƏ OLUNUB 2





“Qeyri-infeksion xəstəliklərin yükü və mübarizə strategiyaları”na həsr olunmuş I Milli Konfrans 5

ATU-da bayram tədbiri 5



ATU təmsilçisi Gənc Alimlər Qurultayında iştirak edib 3



İctimai nəzarət və məsləhət şurası növbəti monitorinqini keçirib 3

Zərifə Əliyevanın elmi fəaliyyətinə həsr olunmuş tədbir 6


*Azərbaycan Tibb Universitetinin rektorluğu, Həmkarlar İttifaqı Komitəsi universitetin bütün əməkdaşlarını, o cümlədən professor-müəllim heyətini və tələbələrini Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edirlər!*

BÖYÜK ELMİ ŞURADA

- **Böyük Elmi Şuranın dekabrın 26-da keçirilən bu ilin sonuncu iclasını açan universitetin rektoru, professor Garay Gəraybəyli gündəlikdə duran məsələləri diqqətə çatdırıb.**



# İMTAHAN SESSİYASINA HAZIRLIĞIN VƏZİYYƏTİ MÜZAKİRƏ OLUNUB

Bundan sonra "Azərbaycan Tibb Universitetində 2017-2018-ci tədris ilinin payız semestrinin imtahan sessiyasına hazırlığın vəziyyəti və imtahanların mütəşəkkil keçirilməsində universitet kollektivinin vəzifələri" barədə universitetin tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyevin hesabat məruzəsi dinlənilib.

Hesabat məruzəsində ölkə başçısının 24 oktyabr 2013-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş "Təhsilin inkişafı üzrə dövlət strategiyası"nın qüvvəyə minməsindən artıq 4 il ötdüyünü, 2017-2018-ci dərs ilinin ümumi təhsildə keyfiyyət ili elan edildiyini vurğulayan S.Əliyev bu istiqamətdə həyata keçirilən tədbirlərin ali məktəblərə qəbulun nəticələrində də özünü göstərdiyini deyib: "Cari ildə ali məktəblərə 37624 nəfər qəbul olub. Tələbə adını qazanmış abituryentlərin bilik səviyyəsinin yüksəlməsini aşağıdakı rəqəmlər ifadə edir: son dörd ildə 300-dən çox bal toplayanların sayı 16 faiz, 400- dən çox bal toplayanların sayı 19 faiz, 500-dən çox bal toplayanların sayı 28 faiz, 600-dən çox bal toplayanların sayı isə 43 faiz artıb".





Hər bir ali məktəbin qazandığı müvəffəqiyyətin orada çalışan müəllimlərin keyfiyyət göstəriciləri ilə daha çox bağlı olduğunu, universitetimizdə mütəxəssis hazırlığının səviyyəsinə nəzarət və onun qiymətləndirilməsinin həm semestr dövründə, həm də hər semestrin imtahan sessiyası dövründə aparıldığını söyləyən prorektor, ona görə də bu prosesin təkcə universitet rəhbərliyinin deyil, həmçinin ölkə ictimaiyyəti və mətbuatının daim diqqət mərkəzində saxlanıldığını diqqətə çatdırıb.

"Tibb təhsilinin hər iki pilləsində dərsə davamiyyətin vacibliyi müzakirə obyekti ola bilməz. Ali tibb təhsili yalnız əyani təhsildir və tələbələrin 25% -ə qədər dərs buraxması tibb təhsili üçün məqbul sayıla bilməz" – deyən prorektor bildirdi ki, "Ali təhsil müəssisələrinin bakalavriat və mağistratura səviyyələrində təhsil alanların köçürülməsi, xaric edilməsi, bərpa olunması və akademik məzuniyyət götürməsinə dair müvəqqəti Qaydalar"ın 3-cü bəndinə əsasən tələbənin semestr ərzində bir gün də olsa dərsə gəlməsi onun universitetdə saxlanılması üçün əsasdır: "Başqa sözlə desək, dərsə davamiyyətə görə universitetdən xaric olunma anlayışı artıq mövcud deyil".

S.Əliyev bu bənddə göstərilən 25% dərsburaxma limitinin tibb təhsilinə uyğun dəyişdirilməsini məqsədəuyğun hesab edir: "Çünki tələbələrin bir qrupu bundan sui istifadə edir, əsasən mühazirələrdə iştirak etmirlər, təcrübə məşğələlərinə əsasən də IV-VI kurslarda kurasiya dərslərinə 1-2 saat gecikirlər. İrad tutduqda isə dərsburaxmanın qeydə alınması ilə razılaşırlar".

Universitet rəhbərliyi tərəfindən 2017-2018-ci tədris ilinin payız semestrinin imtahan sessiyasını mütəşəkkil keçirmək məqsədilə imzalanmış əmrə müvafiq olaraq universitetin tədris işləri üzrə prorektoru, tədris şöbəsi, ayrı-ayrı dekanlıqlar və kafedralar, virtual test mərkəzi, tədris-metodik və innovasiya şöbəsi qarşısında icra edilməsi çox vacib olan vəzifələr qoyulduğunu vurğulayan prorektor qeyd edib ki, nəzərdə tutulan əksər işlər artıq başa çatdırılmışdır: "Əmrdə kredit sistemi ilə təhsil alan tələbələrin imtahanlarının kompyüter vasitəsilə test üsulu ilə, yalnız hərbi tibb məktəbində təhsil alanlar üçün şifahi, mağistraturada yazılı aparılması göstərilmişdir. Rektorluq şurasında aparılan müzakirələrin nəticəsi kimi kompyüter vasitəsilə test üsulu ilə aparılan imtahanların modernləşdirilməsi məqsədilə qərar qəbul edilmiş və keçən il I kurslarda başlayaraq suallarin 50-dən 25-ə endirilməsi qərara alinmışdır. Hər sual 2 balla qiymətləndiriləcək. Bu il də 25 sualdan 15 sual tələbələrin nəzərinə çatdırılan suallardır. 10 sual isə qapalı və çox cavablı sual olacaq. Onu da qeyd edim ki, bu suallar humanitar fənlərə yox, əsasən tibb yönümlü imtahan fənlərinə tətbiq olunacaqdır. Beləliklə, hətta sualları əzbərləyən tələbə belə bütün hallarda "əla" və çox yaxşı qiymət ala bilmək üçün ən azı dərsliyi oxumalıdır".

S.Əliyev çıxışında diplomdansonrakı rezidentura təhsilinin vəziyyətinə də toxunub: "2017/2018-ci tədris ilində Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən universitetə rezidentura üzrə I kursa 34 ixtisas üzrə 100 nəfər rezident, 9 nəfər isə xarici rezident qəbul olmuşdur. Hal-hazırda Azərbaycan Tibb Universiteti üzrə I-V kurslarda 36 ixtisas üzrə 575 rezident təhsil alır ki, onlardan 36 nəfəri xarici ölkə vətəndaşlarıdır".

Universitetdə təhsil alan xarici ölkə vətəndaşlarının təhsilinin təşkili məsələsi üzərində də dayanan prorektor xarici ölkə vətəndaşlarının tələbə kontingentimizin önəmli hissəsini təşkil etdiyini söyləyib: "2017/2018-ci tədris ilinin əvvəlində universitetdə 1197 nəfər xarici tələbə olmuşdur. 12 nəfər universitetə bərpa edilmiş, 1 nəfər xəstəliyinə görə akademik məzuniyyətə getmişdir. 19 nəfər isə universitetdən xaric olunmuşdur. Hal-hazırda ATU-da 1189 xarici tələbə müalicə-profilaktika, stomatologiya və əczaçılıq fakültələrində təhsil alır".

S.Əliyev çıxışının sonunda professor-müəllim heyətinin payız semestrinin imtahan sessiyasının müvəffəqiyyətlə keçirilməsi işində əzmlə çalışacağına əminliyini bildirib.

Məruzə ətrafında çıxış edən kafedra müdirləri hesabatı qənaətbəxş qiymətləndirərək payız semestrinin imtahan sessiyasına hazırlığın vəziyyəti ilə bağlı fikirlərini və təkliflərini şura üzvləri ilə bölüşüblər.

I cərrahi xəstəliklər kafedrasının müdiri, AMEA-nın müxbir üzvü, professor Nuru Bayramov digər kurslarla müqayisədə dərsə daha çox gecikən VI kurs tələbələrinin xəstələrin diaqnostikasına və müalicəsinə, səriştəyönlü təlim kurslarına cəlb edilməsinin vacibliyindən danışıb.

İnsan anatomiyası kafedrasının müdiri, professor Vaqif Şadlinski dekanlıq nümayəndələrinin açıq mühazirələrdə və açıq dərslərdə iştirakının zəruriliyinə toxunaraq imtahana buraxılma ballarının obyektiv verilib-verilməməsini yoxlamağı təklif edib. Kafedraya gələn 70-dən yuxarı rezidentin ancaq 10 faizinin Azərbaycan Tibb Universitetindən olmasını təəssüflə qeyd edən professor təməl kafedralarında gənc kadrlara yaranan təlabatdan və bu problemin həlli yollarından da söz açıb.

Tələbələrin mühazirələrə münasibətinin qənaətbəxş olmadığını bildirən ümumi gigiyena və ekologiya kafedrasının müdiri, professor Mirzə Kazımov bütün kurslar üzrə imtahanların çoxluğu və təkrar dinləmələrlə bağlı fikirlərini bölüşüb.

Ümumi və toksikoloji kimya kafedrasının müdiri, professor Eldar Qarayev isə mühazirələrin iingilis dilində olan versiyasını universitetin saytında yerləşdirmək təklifi ilə çıxış edib.

G.Gəraybəyli müzakirələrə yekun vuraraq Sabir müəllimin hesabatını yüksək qiymətləndirib və çıxışlarda səslənən fikirlərə münasibətini açıqlayıb: "Təbii ki, bir elmi şurada müxtəlif məsələləri dərhal müzakirə etmək və hansısa qərar qəbul eləmək mümkün deyil. Biz bir çox məqamlar haqqında dəfələrlə danışmışıq. Belə qərara gəlmişik ki, bəzi nöqsanların hansısa kafedra və yaxud ayrıca bir müəllim səviyyəsində aradan qaldırılması mümkünsüzdür. Çünki kifayət qədər böyük vaxt aparır, əziyyət tələb edir, o qədər də effektli olmur. Ona görə də ilk növbədə sistem dəyişməlidir. Özü də elə bir formada dəyişməlidir ki, artıq o nöqsana yol vermək mümkün olmasın. Biz indi bu istiqamətdə işləyirik və əminəm ki, gələcəkdə istəyimizə nail olacağıq".

Universitetdə ənənəvi olaraq keçirilən istehsalat müşavirələrinə birinci semestrdir ki, "stop" qoyulduğunu vurğulayan rektor əslində bu müşavirələrin ideyasının çox müsbət olduğunu, ancaq onilliklər boyu formal xarakter daşıdığından özünü doğrultmadığını deyib: " Bəzən dekanlar tələbəyə danışmağa icazə vermirdilər. Müəllimlər də, tələbələr də bu iclaslara məcburən cəlb edilirdilər. Nəticədə sifarişli çıxışlar olurdu. Biz istehsalat müşavirələrini ləğv etməklə heç də belə görüşləri dayandırmaq fikrində deyilik. Nəyisə ləğv etmək asan, yaratmaq isə çətindir. Düşünürəm ki, həmin müşavirələrə alternativ olaraq tələbələrlə görüşlərin yeni və daha səmərəli variantları tapılmalıdır".

Tələbələrin indi bir qədər sərbəstləşdiklərindən məmnun qaldığını bildirən G.Gəraybəyli qeyd edib ki, artıq onlar rektorun, prorektorların və dekanların qəbuluna gələrək hətta yazılı şəkildə ad çəkməklə, ünvan göstərməklə şikayətlərini edir, iradlarını çatdırırlar.

Bütün hallarda tələbənin dərsə gecikməsinin əleyhinə olduğunu söyləyən rektor gələcəkdə universitetə daxil olan I kurs tələbələri ilə imzalanan müqaviləyə bu barədə bir bəndin salınmasını da təklif edib. O, tibb təhsilinə uyğun normativlərin hazırlanması məsələsini Təhsil Nazirliyində də qaldırdığını və ciddi dəstək aldığını diqqətə çatdıraraq bildirib ki, innovasiya və tədris şöbəsi sırf tibb təhsili üçün qiymətləndirmə mexanizmi hazırlamalıdır.

"Tələbələr oxumur" tezisini qəbul etmədiyini deyən universitetin rəhbəri şəxsi təşəbbüslə təşkil olunan seminarlar və mühazirələrə tələbələrin çox böyük həvəslə gəldiyini xatırladıb: "Şənbə günü təşkil olunan belə əlavə dərslərdən birinə 120 tələbə gəlmişdi, halbuki nə qayıbı yoxlayan vardı, nə gecikməni. Əlbəttə, 15 il əvvəlin mühazirəsini oxuyan müəllimlərin dərslərinə tələbələr həvəs göstərməyəcək".

Universitet haqqında rəy formalaşdıran xarici tələbələrin seçimində əvvəllər yol verilən nöqsanların aradan qaldırıldığını, nisbətən müəyyən yüksəlişə nail olunduğunu vurğulayan rektor İctimai Nəzarət və Məsləhət Şurasının fəaliyyətini də yüksək qiymətləndirib.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Akkreditasiya Şurasının müvafiq protokoluna əsasən Azərbaycan Tibb Universitetinin akkreditasiyadan keçdiyini bildirən rektor bu münasibətlə şura üzvlərini təbrik edib. Eyni zamanda təhsil haqqında Azərbaycan respublikasının Qanununu və ATU-nun nizamnaməsini rəhbər tutaraq "Nizam-intizam" komissiyasının yaradılması haqqında da məlumat verib.

Sonda namizədlikləri kollektiv tərəfindən irəli sürülən sabiq kafedra müdirləri Bahadur Baxşıyev və Əzizağa Talişinskini məsləhətçi-professor vəzifəsinə seçən Böyük Elmi Şura müsabiqə məsələlərini həll etməklə öz işini yekunlaşdırdı.

**Arif MƏMMƏDLİ**

**Fotolar Cənnətalı Çingizindir**

Ölkəmizdə ilk dəfə Azərbaycanın gənc alimlərinin birinci qurultayı keçirilib. AMEA-nın Təhsil Nazirliyi, Gənclər və İdman Nazirlikləri ilə birgə keçirdiyi bu toplantı Prezident İlham Əliyevin 2017-ci il 15 sentyabr tarixli "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının təsdiq edilməsi haqqında" Sərəncamına əsasən təşkil olunub. Ölkənin əksər elm təşkilatları, universitetlərin nümayəndələrinin iştirak etdiyi qurultayın açılış mərasimindən əvvəl Azərbaycan gənc alimlərinin son illər əldə etdiyi nailiyyətlərdən ibarət sərgiyə baxış olub.

# ATU təmsilçisi Gənc Alimlər Qurultayında iştirak edib






Tədbirin açılışında AMEA-nın prezidenti, akademik Akif Əlizadə qurultayın əhəmiyyətindən danışıb. O, Dövlət Proqramının gənclər siyasətini daha səmərəli həyata keçirmək, cəmiyyətin sosial-iqtisadi, mədəni-mənəvi həyatında fəal iştirak edən gənclərin innovativ potensialını üzə çıxarmaq, gənc nəslin sağlamlığını qorumaq, müasir informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə etmək kimi hədəflər müəyyənləşdirdiyini diqqətə çatdırıb.

Qurultayda ATU-nu Gənc Alimlər Şurasının Sədri, ATU-nun şüa diaqnostikası və şüa terapiyası kafedrasının assistenti, tibb üzrə fəlsəfə doktoru Əjdər Əsədov, histologiya, embriologiya və sitologiya kafedrasının assistenti, ATU-nun xarici tələbələrlə iş üzrə dekanı Orxan İsayev və ATU-nun psixiatriya kafedrasının assistenti Nərminə Quliyeva təmsil edib.

Gənc Alimlər Şurasının Sədri Əjdər Əsədov qurultaydakı çıxışında Azərbaycan gənclərinin daim dövlətin diqqət və qayğısı ilə əhatə olduğunu bildirib. O, qeyd edib ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş gənclər siyasəti bu gün Cənab Prezident İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilir.

"Dövlət gənclər siyasəti – yeni nəslin öz bilik və bacarıqlarının, təbii potensialının effektli reallaşdırılmasını, cəmiyyətdə layiqli yer tutmasını təmin edən şəraitin yaradılması məqsədilə dövlət tərəfindən müəyyən edilmiş prioritetlər və həyata keçirilən tədbirlər sistemidir. Azərbaycan gənclərinin cəmiyyətin inkişafında və bu istiqamətdə qarşıya çıxan problemlərin həllində rolunu artırmaq, ölkənin gələcək inkişafında iştirakını və məsuliyyətini yüksəltmək, həmçinin beynəlxalq aləmə inteqrasiyasını sürətləndirmək dövlətin qarşıya qoyduğu əsas prioritetlərdəndir. Azərbaycanın innovasiyalı inkişafa keçidinin zəruriliyi insan kapitalının gerçəkləşdirilməsinə, insanların potensial imkanlarının səmərəli reallaşdırılmasına əsaslanan elmi strategiyanın tətbiqini şərtləndirir. Dövlətimizin başçısı İlham Əliyev də çıxışlarında daim vurğulayır ki, iqtisadi resursların insan kapitalına inkişafına yönəldilməsi yolu ilə formalaşan yeni təfəkkürlü intellektual elita ölkənin perspektiv inkişafının əsas lokomotivi – qüvvəsi - kimi çıxış edəcək".

Ə.Əsədovun çıxışında bildirib ki, məhz bu hədəfin reallaşdırılması məqsədilə son illərdə gənclərin elmə cəlb olunmasına, onların xarici ölkələrdə ali təhsil almasına, sosial problemlərinin həllinə imkan yaradan mühüm dövlət proqramları hazırlanıb, sərəncam və fərmanlar imzalanıb. Dövlətin bu sahədəki yürütdüyü siyasət ATU-da da uğurla icra olunur. Dövlətin elm-təhsil konsepsiyasına əsasən, Azərbaycan Tibb Universitetində də təhsil alan gənclərin elmi-tədqiqat işlərinə cəlb olunması üçün, demək olar ki, lazımi şərait yaradılıb: "Son dövrlər hər il tələbələrin müxtəlif fənlər üzrə respublika olimpiadaları, konfranslar, doktorantların və gənc tədqiqatçıların respublika simpoziumları müsabiqələri keçirilir ki, bu da elmə, elmi tədqiqatlara olan marağı daha da artırır. Son illərdə Azərbaycan Tibb Universitetinin gənc alimləri müxtəlif ölkələrdə - ABŞ, Rusiya, Türkiyə, Almaniya, Yunanıstan və başqa ölkələrdə yaradıcı ezamiyyətlərdə olublar. Bunu da Azərbaycan elminin inkişafı istiqamətində atılmış mühüm addım kimi qəbul etmək olar".

Nümayəndəmiz daha sonra bildirib ki, qurultay vasitəsilə elmi fəaliyyətin şərəfli, nüfuzlu və maddi nöqtəyi-nəzərdən cəlbedici olduğunu gənclərə nümayiş etdirmək mümkün olacaq. Əjdər Əsədov çıxşının sonunda Azərbaycan Tibb Universitetindəki təhsil müddətini (altı il ali təhsil və beş ilə qədər rezidentura) nəzərə alaraq gənc alimlər üçün yaş həddi senzinin artırılmasını təklif edib.

Qurultayın sonunda Azərbaycan gənc alimlərinin birinci qurultayının bəyannaməsi qəbul olunub. Sənəddə bildirilir ki, intellektual gəncliyin innovativ potensialının üzə çıxarılması, onların təhsil və məşğulluq məsələlərinə diqqətin artırılması, ölkəmizdə və xaricdə yaşayan gənc alimlərin fəaliyyətinin koordinasiyası istiqamətində fəaliyyətin gücləndirilməsi vacibdir.

# İctimai nəzarət və məsləhət şurası növbəti monitorinqini keçirib

**Dekabrın 19-da Azərbaycan Tibb Universitetinin rektoru yanında İctimai Nəzarət və Məsləhət Şurası (İNMŞ) növbəti reydini keçirib. 3 saylı tədris binasında keçirilən monitorinqində şuranın sədri, millət vəkili, həkim qastroentroloq İlham Məmmədov və üzvləri - Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun Prezidenti Rauf Zeyni, "Cəmiyyətin və Vətəndaş Münasibətlərinin İnkişafı" İctimai Birliyinin sədri, QHT-lərin Antikorrupsiya Şəbəkəsinin üzvü Əhməd Abbasbəyli, "İki sahil" qəzetinin redaktoru, Mətbuat Şurası İdarə Heyətinin üzvü Vüqar Rəhimzadə, ATU-nun əczaçılığın texnologiyası və idarəçiliyi kafedrasının baş müəllimi, "Gənc vətəndaş" İctimai Birliyinin sədr müavini Aidə Bəndəliyeva və tələbə- dekan Məhərrəm Alimli iştirak ediblər.**

Monitorinq zamanı insan anatomiyası, biologiya və tibbi genetika kafedralarında mühazirə zallarına, seminar və praktiki məşğələ otaqlarına daxil olan şura üzvləri tədris prosesini izləyib, tələbələrlə açıq diskussiya aparıblar. Qarşılıqlı fikir mübadiləsi aparılarkən tələbə-müəllim münasibətlərinə də toxunulub.

Dərs yükü ilə müqayisədə bəzi fənlərdən dərs saatının az olduğunu və bu amilin tədrisin keyfiyyətinə mənfi təsir göstərdiyini deyən tələbələr test imtahanlarında açıq sualların çoxluğundan və bəzi sualların tərtibindəki uyğunsuzluqdan da şikayətləniblər. Onlar cavabları rəqəmlə ifadə olunan sualların test imtahanına salınmasını məqsədəuyğun hesab etmirlər və bunu belə sualların əzbərçiliyə gətirib çıxarması ilə əsaslandırırlar.

Təkcə mənfi hallara deyil, təqdir olunası məqamlara da diqqət yetirən şuranın üzvləri insan anatomiyası kafedrasında yaradılan tədris şəraitindən razı qaldıqlarını bildiriblər.





Əvvəllər də yazdığımız kimi, reydlərin aparılmasında əsas məqsədi tələbələrin fikirlərini, rəylərini, şikayətlərini və təkliflərini öyrənməklə ictimailəşdirmək və qarşıya çıxan problemlərin həllinə nail olmaqdır.

Xatırladaq ki, qeydə alınan təklif və rəylər qruplaşdırılaraq müzakirə edildikdən sonra reydin nəticələri haqqında daha ətraflı məlumat veriləcək.

# II müalicə-profilaktika fakültəsinin həmkarlar qrupu ilə görüş olub

**II müalicə-profilaktika fakültəsinin kafedralarında fəaliyyət göstərən həmkarlar qrupu ilə fakültə rəhbərliyinin görüşü keçirilib.**



Fakültə dekanı, dosent İsrail Məhərrəmbəyli görüşün məqsədi barədə məlumat verib. Qeyd edib ki, əsas məqsəd fakültə nəzdində olan kafedraların həmkarlar qrupunun fə aliyyətinin aktivləşdirilməsini, universitetdə aparılan reformalarda onların aktiv iştirakını təmin etməkdir: "Kafedralarımızın həmkarlar qrupunun üzvü həm kafedrada işə davamiyyətə, həm də tədrisin təşkili qaydalarına nəzarət edən şəxsdir. Son illərdə bizim fakültənin həmkarlar qrupunun sədri olmadığı müddətdə yeni bir təyinat olub. II müalicə-profilaktika fakültəsinin həmkarlar qrupuna sədr seçilib. Bu vəzifəni ATU-nun İdman təbabəti və fizioterapiya kafedrasının assistenti Nurlana Əliyeva icra edəcək. İnanırıq ki, bundan sonra işlər daha aktiv aparılacaq".



Görüşdə həmkarlar qrupunun bir-biri ilə və dekanlıqla sıx əlaqədə olmalarından, o cümlədən universitetin ictimai-mədəni həyatında aktiv iştiraklarının vacibliyindən söz açıldı. Tədbirdə ümumilikdə 22 nəfər üzv iştirak edirdi. Bunlardan 5 nəfəri Həmkarlar İttifaqı Komitəsinin büro üzvləri, digərləri isə fakültə üzrə kafedraların həmkarlar qruplarının rəhbərləri idi.

# Universitet rəhbərliyi ilə imtahan nəzarətçilərinin görüşü olub

**Dekabrın 20- də Azərbaycan Tibb Universitetində imtahan nəzarətçiləri ilə görüş keçirilib. Görüşdə giriş sözü ilə çıxış edən ATU-nun tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev bildirib ki, artıq imtahan öncəsi belə toplantıların keçirilməsi bir ənənə halını alıb.**





O, İmtahanın qaydalara uyğun şəkildə və tam şəffaf şəraitdə keçirilməsi baxımından, nəzarətçilərin böyük rol oynadığını bildirib: “Nəzarətçilərin namizədliyi bizə kafedra müdirləri tərəfindən təqdim olunub. İnanıram ki, imtahan dönəmində hamınız bir nəfər kimi aktiv olacaq, işinizi dəqiq yerinə yetirəcək və sizə göstərilən etimadı doğruldacaqsınız . Əminliklə deyə bilərəm ki, imtahan nəzarətçiləri universitetimizdə ən mobil, ən etibar olunan insanlardır”.

ATU-nun Virtual Test Mərkəzinin direktoru, dosent Şahin Bayramov isə çıxışında əsasən imtahan prosesində nəzarətçilərin diqqət göstərməli olduğu məqamları vurğuladı. Məsələn, eyni fəndən imtahan verən tələbələrin yanaşı oturmasına icazə verilməməlidir, tələbələrin vaxtında imtahana gəlişi təmin olunmalıdır. Ş.Bayramov cari tədris ilinin bu semestrindən etibarən imtahan qaydalarında dəyişiklik olduğunu da xatırlatdı. Belə ki, bundan sonra bütün tələbələr eyni modul sistemi ilə imtahan verəcəklər: “Birinci və ikinci kurslar 25 suala, yuxarı kurslar isə 50 suala cavab verəcəklər .Əvvəlki sistemdə tələbələrin imtahanı üçün saat məhdudiyyəti yox idi. Amma bu ildən imtahan müddəti hər bir qrupun giriş saatından etibarən hesablanır və hər qrupa 50 dəqiqə vaxt ayrılır”. Onun sözlərinə görə, imtahan üçün texniki baza tamamilə hazır vəziyyətdədir.

İmtahan-nəzarət qrupunun rəhbəri, dosent Kamandar Yaqubov nəzarətçilərin üzərinə düşən konkret vəzifələrdən danışıb. Bildirib ki, onların hər biri səhər saat 9-a işləmiş nəzarət zalında olmalı, işə gələn əməkdaşlar müvafiq olaraq qeydiyyatdan keçməli, ad və soyadlarını yazaraq imzaları ilə təsdiqləməlidir.

K.Yaqubov diqqətə çatdırıb ki, bu il ATU-nun rektorunun əmrinə əsasən universitetdə imtahanların keçirilməsinin təşkili haqqında sərəncam verilib: “Bununla bağlı universitet daxilində operativ qərargah yaradılıb. Operativ qərargaha universitetin ümumi işlər üzrə prorektoru Natiq Xəlilov rəhbərlik edəcək. Əvvəlki illərdən fərqli olaraq, bu il imtahanlar fərqli formatda aparılacaq, bütün kurslar üzrə proqram dəyişəcək. Digər tərəfdən, tələbə imtahana gəliş üçün ayrılan vaxt limitini keçərsə, onda onun imtahana girməsinə icazə verilməyəcək”.

Görüşdə o da qeyd olunub ki, bu il 160 müəllim imtahan sessiyasına nəzarətçi qismində qatılacaq. Onların hər biri sessiya boyunca 6 imtahanda iştirak edəcək.

# “İlk yardımın əsasları” təliminə başlanılib

- **ATU-nun II müalicə-profilaktika fakültəsinin IV kurs, 260-cı qrup tələbəsi Oktay Hüseynovun təşəbbüsü ilə Amerika Ürək Assosiasiyasının proqramı əsasında lisenziyalaşdırılmış təlim kursuna başlanılıb.**



Beynəlxalq İlk Yardım Standartları”na uyğun “İlk yardımın əsasları” təlimində peşəkar tibbi yardımdan öncəki ilkin yardımın necə göstərilməsi öyrədilir. Hələlik kursa yalnız rus sektorunun tələbələri cəlb olunub, Azərbaycan sektorunun tələbələri üçün isə proqram hazırlanır.

Artıq təlimdə ilk mərhələni başa vuran tələbələrin ilkin yardımı hansı səviyyədə mənimsədiklərini yoxlamaq məqsədilə test imtahanı keçirilib. Bundan sonra həmin tələbələr Tədris Cərrahiyyə Klinikasında manekenlər üzərində praktiki bacarıqlarını nümayiş etdiriblər.

Oktay Hüseynov bu təlimlər zamanı tələbələrə ürək masajı ritmini öyrətmək üçün Azərbaycanda ilk dəfə olaraq mahnı üsulundan (Bee gees Stayin alive) isti-fadə etdiyini deyir. Onun sözlərinə görə, bu metoddan Amerikada ilk dəfə David Matlock istifadə edib.

Xatırladaq ki, respublikamızda nəzəriyyə və təcrübəni əhatə edən, Azərbaycan, ingilis və rus dillərində keçirilən treninqlər zamanı müasir avadanlıqdan və dünyada tanınan “Laerdal” şirkətinin xüsusi tədris manikenlərindən istifadə edilir. Manikenlər süni ağciyər, ürək-damar sistemləri və digər xüsusi cihazlarla təchiz olunub.

Məşğələlərin sonunda praktiki və test imtahanları keçirilir, onların nəticəsindən asılı olaraq treninqi bitirənlərə sertifikat verilir.

# Tədris Terapevtik Klinikada fəaliyyət göstərən Aritmiya Mərkəzi haqqında Amerikanın məşhur jurnalında məqalə dərc olunub



Figure 3: EP staff after a case. From left to right: Ramiz Mammedyarov (EP technician), Fuad Samedov (cardiac imaging specialist), Aytan Hajiyeva (electrophysiologist), Farid Aliyev (electrophysiologist), and Elnur Isayev (electrophysiologist).

Məqalədə EP laboratoriyası və burada aparılan klinik tədqiqatlar barədə də söhbət açılıb. Aritmiya Mərkəzinin direktoru, kardioloq Fərid Əliyev hal-hazırda davamlı və tez-tez görülən ventrikulyar taxikardiya fibrilasiyalı xəstələrdə ikitərəfli perkutan ulduzabənzər qanglionablyasiyanın (və ya ikitərəfli perkutan stellat qanqlion) (spirt və RF) təsirinin araşdırıldığını bildirib. Bu nəticələrin tezliklə nəşr olunacağını və perspektivləri barədə də məlumat verib.

Məqalədə həmçinin tətbiq ediləcək yeni texnologiyalar və işçi heyəti ilə bağlı məsələlər yer alıb.

Məqalə ilə daha ətraflı bu linkdən tanış ola bilərsiniz:

https://www.eplabdigest.com/articles/Spotlight-Interview-Azerbaijan-Medical-University

# ATU-nun intellektual oyunlar üzrə komandası yarışda IV yerə layiq görülüb

Azərbaycan İntellektual Oyunlar Assosiasiyasının təşkilatçılığı ilə “Nə? Harada? Nə zaman?” intellektual oyunu üzrə tələbələrarası çempionat keçirilib. Yarışda Azərbaycan Tibb Universitetinin komandası IV yerə layiq görülüb.

Komandanın kapitanı Leyla Hüseynova bildirib ki, yarışda 30 komanda iştirak edib. O, yarışın çox maraqlı, eyni zamanda həyəcanlı keçdiyini deyib. Komandanın üzvü Mirzeynal Hüseynov universitetinin həqiqi çempionları olduqlarını qeyd edib. Onlara verilən dəstək üçün ATU rektorunun köməkçisi Ceyhun Məmmədzadəyə və ATU-nun THİK-in sədri Elvin Kərimliyə təşəkkürünü bildirib. ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Elvin Kərimli komandanı IV yer tutmaları münasibəti ilə təbrik edib. O, komanda üzvlərini hədiyyələrlə təltif edib.

Qeyd edək ki, ATU-nun intellektual oyunlar üzrə komandası artıq 5 ildir ki, fəaliyyət göstərir. Komandanın üzvləri olan Həyat Quliyeva, Nigar Fərhadlı, Tofiq Dadaşov, Mirzeynal Hüseynov, İsmayıl Əliyev və Leyla Hüseynova universiteti fərqli intelektual oyunlarda, bilik yarışlarında və eləcə də müxtəlif platformalarda təmsil edib.



**ATU-nun mətbuat xidməti**

**Azərbaycan Tibb Universitetinin böyük akt zalında təntənəli bayram tədbiri oldu. Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni İl Bayramı münasibətilə düzənlənən tədbir ulu öndər Heydər Əliyevin video-rolikdə səsləndirilən "Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, azərbaycanlıyam!" müdrik kəlamları ilə açıldı.**

# ATU-da BAYRAM TƏDBİRİ

Gecənin aparıcıları - Səmra Bağırlı və Eşqin Əsgərov tədbir iştirakçılarını salamlayaraq 1993-cü ildə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə 31 dekabrın həm də Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan edildiyini qeyd etdilər: "Azərbaycan xalqı üçün hər il 31 dekabr tarixi qoşa bayram sevinci ilə yadda qalır. Bu münasibətlə universitet rəhbərliyi professor-müəllim heyətini və tələbələri bir araya toplayıbdır".

Sonra universitetin rektoru, professor Gəray Gəraybəyli çıxış edərək, müəllim-tələbə heyətini və tədbir iştirakçılarını təbrik etdi. Öz səmimi duyğularını, arzu və istəklərini bayram tədbirinin iştirakçıları ilə bölüşdü: "Çox hörmətli professor- müəllim heyəti, əziz tələbələr, qopnaqlar və dostlar! Bu bayramlar ərəfəsində mən sizin hər birinizi, eləcə də doğmalarımızı Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni İl Bayramı münasibətilə ürəkdən təbrik edirəm. Gələcək işlərdə xalqımıza, ölkəmizə daha da yüksək inkişaf və dünya dövlətləri sırasında özünə layiqli yer tutmasını arzulayıram. Arzu edirəm ki, yaxın günlərdə biz xalqımızın əziz bayramlarını işğaldan azad edilmiş torpaqlarımızda - Xankəndində, Şuşada qeyd edək. Üzümüzə gələn illərdə sizin hər birinizə ilk növbədə can sağlığı, ailə səadəti, mehribanlıq, ailələrinizə, rəhbərlik etdiyiniz kollektivlərə müvəffəqiyyətlər arzulayıram."

Rektorun alqışlarla qarşılanan təbrikinin ardınca bir-birini əvəzləyən musiqi nömrələri hamını bayram ovqatına kökləldi. Universitetimizin "Şəfa" xalq çalğı alətləri ansamblının rəngarəng ifaları tədbir iştirakçılarında bir xoş ovqat yaratdı.







Sonra tədbirdə rektor G.Gəraybəylinin təşəbbüsü ilə təsis olunmuş mükafatların təqdimat mərasimi keçirildi. Bu nominasiyalardan biri universitetimizdə uzun illər ərzində səmərəli və qüsursuz fəaliyyət göstərmiş keçmiş kafedra müdirləri təltif olundular. ATU rektorunun 21 dekabr 2017-ci il tarixli əmri ilə universitetin ictimai həyatında uzun müddətli aparıcı rollarını, elmi-pedaqoji fəaliyyətlərini və gənc elmi kadrların hazırlanmasındakı rollarını nəzərə alaraq, professorlar Amaliya Əyyubova, Nəsib Quliyev, Bahadur Baxşiyev, Çingiz Quliyev və Əzizağa Talışinskiyə fəxri fərman və bir aylıq əmək haqqı məbləğində pul mükafatı təqdim olundu.

Bayram ərəfəsində digər müəllimlər də hədiyyəsiz qalmadı. Bu ilin payız semesterində III, IV, V, VI kursun 128 tələbəsi arasında keçirilən sorğuya əsasən farmakalogiya kafedrasının müəllimi, dosent Kamandar Yaqubov "Ən yaxşı müəllim"nominasiyası üzrə ən çox səs toplayıb. Onun pedaqoji fəaliyyəti, tələbələrə qarşı fədakarlığı, qayğıkeşliyi, tələbələr tərəfindən fəaliyyətinin yüksək qiymətləndirilməsi nəzərə alınaraq, ona fəxri fərman və bir aylıq əmək haqqı məbləğində pul mükafatı təqdim olunub.

Universitetimizin gündən-gündən gözəlləşməsində xüsusi zəhməti olan təsərrüfat işçiləri də unudulmadı. "İlin ən yaxşı təsərrüfat işçisi" adına layiq görülən Namiq İsmayılov rektorun müvafiq əmri ilə bir aylıq əmək haqqı məbləğində pulla mükafatlandırıldı.

Həmçinin səmərəli və işgüzar fəaliyyəti nəzərə alınan uiversitetin Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımovun mükafatlandırılması, onun işgüzar fəaliyyətinə və fədakarlığına rektor tərəfindən verilən əsl qiymət idi.

Univrsietin əsas sütunlarından biri olan tələbələr də müxtəlif nominasiyalar üzrə təltif olundular. Fakültə dekanlarının, Tələbə Həmkarlar İttifaqı Komitəsinin və Tələbə Elmi Cəmiyyətinin təqdimatları əsasında elmi fəaliyyətlə məşğul olan, universitetin ictimai həyatında fəal iştirak edən və nizam-intizamı yüksək olan "İlin ən yaxşı elmlə məşğul olan", "İlin ən yaxşı dərsə davamiyyəti olan və dərslərini yaxşı oxuyan""İlin ən aktiv" tələbələri də mükafatlandırılıblar. Mükafatlandırılanlar sırasında II müalicə-profilaktika fakültəsinin VI kurs tələbəsi Ülvi Ələşrəfov, ictimai-səhiyyə fakültəsinin VI kurs tələbəsi Nərgiz Əliyeva, Stomatologiya fakültəsinin III kurs tələbəsi Elcan Məmmədli, II müalicə-profilaktika fakültəsinin III kurs tələbəsi Şəmsi Axundov olub.

Tədbirdə həmçinin "İstedad sorağında" mövzusunda rəsm sərgisinin qaliblərinin adları da açıqlanıb. Onlar II müalicə-profilaktika fakültəsinin V kurs tələbəsi Elsevər Ağazadə, II müalicə-profilaktika fakültəsinin VI kurs tələbəsi Hikmət İslamlı və I müalicə-profilaktika fakültəsinin III kurs tələbəsi Nigar İbrahimli, II müalicə-profilaktika fakültəsinin III kurs tələbəsi Ayaz Məmmədov olub. Tədbirin bədii hissəsi "Şəfa" xalq çalğı alətləri ansamblı, "Çinar" rəqs ansamblının çıxışı, istedadlı tələbələr Nadir Nəbiyev, Elmira Aslan, Həbib Fəxrilinin və digərlərinin yaddaqalan ifaları ilə davam etdirilib.

Tələbələrinin təqdim etdiyi "D" bir pərdəli tamaşa da tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb. Bayram toplantısı bədii hissə ilə sona çatıb.

**Qabil ABDULLAYEV**

**Dekabrın 18-də ATU-nun Tədris Terapevtik Klinikasında "Qeyri-infeksion xəstəliklərin yükü və mübarizə strategiyaları"na həsr olunmuş I Milli Konfrans keçirilib.**

# "Qeyri-infeksion xəstəliklərin yükü və mübarizə strategiyaları"na həsr olunmuş I Milli konfrans

Dekabrın 18-də ATU-nun Tədris Teraevtik Klinikasında "Qeyri-infeksion xəstəliklərin yükü və mübarizə strategiyaları"na həsr olunmuş I Milli Konfrans keçirilib.

Konfrans Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi və Azərbaycan Tibb Universitetinin birgə təşkilatçılığı ilə həyata keçirilib.

Konfransı giriş nitqi ilə açan ATU rektoru, professor Gəray Gəraybəyli toplantı iştirakçılarını salamlayaraq, onlara konfransın işində uğurlar arzulayıb.

G.Gəraybəyli bildirib ki, möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə bütün sahələrdə olduğu kimi səhiyyədə də sürətli inkişaf gedir:

"Bu istiqamətdə aparılan məqsədyönlü siyasət insan sağlamlığının qorunması, xəstəliklərin qarşısının alınması, xəstələrə göstərilən tibbi xidmətin yaxşılaşdırılması və keyfiyyətinin artırılmasına xidmət edir. Bunun bariz nümunəsi kimi 2005-ci ilin dekabrın 23-də Cənab Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında qeyri-infeksion xəstəliklərlə mübarizəyə dair 2015-2020-ci illər üçün Strategiya"nın qəbulunu göstərmək olar. Bu sərəncamla təsdiq olunmuş strategiyadan sonra Səhiyyə Nazirliyi tərəfindən fəaliyyət planı hazırlanıb. Və bu plana uyğun olaraq bir çox istiqamətdə işlər görülüb və görülməkdə də davam edir".





Səhiyyə Nazirliyinin aparat rəhbəri Zəkiyyə Mustafayeva çıxışında hazırda qeyri-infeksion xəstəliklərin dünyada ən geniş yayılmış epidemiya olduğunu deyib: "Bu xəstəlik hər gün minlərlə insanın ölümünə və sağlamlığına təhlükə yaradır. Bir çox inkişaf etmiş ölkələr kimi Azərbaycan da bu təhlükəli epidemiya ilə mübarizəyə bir neçə il əvvəl qoşulub. Strategiyanın icrasını təmin etmək məqsədilə Səhiyyə Nazirliyinin 10 may 2016-cı il tarixli əmri ilə aidiyyatı dövlət orqanlarının nümayəndələri də daxil olmaqla, icra və əlaqələndirici işçi qrupu yaradılıb. Bu istiqamətdə əhalinin sağlamlığının yaxşılaşdırılması məqsədilə mühüm tədbirlər həyata keçirilir. Qeyri-infeksion xəstəliklərin qarşısının alınması üçün tibbi xidmətin keyfiyyətinin artırılması, bu sahədə informasiya imkanlarının genişləndirilməsi, tədqiqatların aparılması, eləcə də bu xəstəliklə bağlı monitorinqlərin həyata keçirilməsi əsas vəzifələrdən biridir. Qeyd edim ki, bu xəstəlik təkcə Səhiyyə Nazirliyinin problemi deyil, ümumiyyətlə cəmiyyətin problemidir".

İctimai Səhiyyə və İslahatlar Mərkəzinin direktoru Ceyhun Məmmədov konfrans iştirakçılarını salamlayıb və onlara belə mühüm bir tədbirdə iştiraka görə minnətdarlığını bildirib.

"Artıq iki ildir ki, Cənab Prezident İlham Əliyev tərəfindən imzalanmış "Azərbaycan Respublikasında qeyri-infeksion xəstəliklərlə mübarizəyə dair 2015-2020-ci illər üçün Strategiya" ölkəmizdə tətbiq olunur. Bu konfransın keçirilməsində də əsas məqsəd ölkəmizdə gələcəkdə bu strategiyanın tətbiqi ilə bağlı qarşıda duran vəzifələri həyata keçirməkdir. İnanıram ki, bu sahədə səylərimizi birləşdirərək uğurlara nail ola bilərik".

Toplantıda çıxış edən Milli Məclisin Hüquq Siyasəti və Dövlət Quruculuğu Komitəsinin sədri, millət vəkili Əli Hüseynli belə bir konfransın təşkilinə görə əməyi keçən hər kəsə təşəkkür edib.

O, bildirib ki, parlamentdə də bu xəstəliklə mübarizəyə dair bir sıra müzakirələr aparılır: "Hesab edirəm ki, səhiyyə işçiləri də bu sahədə üzərlərinə düşən işlərin öhdəsindən layiqincə gələcəklər".

Sonra konfrans öz işini məruzələrlə davam etdirib.

**ATU-nun mətbuat xidməti**

# Zərifə Əliyevanın elmi fəaliyyətinə həsr olunmuş tədbir

**Dekabrın 21- də Azərbaycan Tibb Universitetində dahi elm adamı, tanınmış oftalmoloq Zərifə Əliyevanın ölkəmizin səhiyyəsinin inkişafındakı roluna həsr edilən toplantı keçirilib. ATU-nun Tələbə Gənclər Təşkilatının təşəbbüsü ilə təşkil olunan tədbirdə universitetin müalicə və tədris işləri üzrə prorektoru, professor Sabir Əliyev çıxış edərək Azərbaycanın görkəmli oftalmoloqu haqqında tədbir iştirakçılarına ətraflı məlumat verdi.**




S.Əliyevin sözlərinə görə, akademik Zərifə Əliyeva peşəkar həkim və alim olmaqla yanaşı, həm də görkəmli ictimai xadim olub: "Zərifə xanım Əliyeva keçmiş SSRİ Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, Ümumittifaq "Bilik" Cəmiyyəti İdarə Heyətinin, Ümumittifaq Oftalmoloqlar Elmi Cəmiyyəti Rəyasət Heyətinin üzvü olmuş, "Əməkdar Elm Xadimi" fəxri adına layiq görülmüşdür. Zərifə xanımın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur, iftixar mənbəyidir. Amma bu adlar sırasında ən şərəflisi sayılan müqəddəs -Ana adıdır".





ATU-nun Patoloji fiziologiya kafedrasının dosenti Sərdar Əliyev görkəmli alimin Azərbaycanda tibbin inkişafına verdiyi töhvələrdən danışıb. "Zərifə xanım gənclərimiz üçün mənəvi paklıq nümunəsidir. O, insanlara örnək olan mənəvi baxımdan zəngin bir həyat yaşayıb. Zərifə xanım Əliyeva yazıb-yaratdığı dəyərli əsərləri, qoyub getdiyi elmi nailiyyətləri, pedaqoqluq səriştəsi ilə ideal bir həkim, alim və insan kimi xatirələrdə yaşayır və daim yaşayacaq. O, gözlərinə işıq verdiyi, nur bəxş etdiyi minlərin, milyonların qəlbində əbədi qalacaq".

Tədbirin ikinci hissəsində isə akademik Z.Əliyeva ilə yanaşı, tanınmış həkim və ictimai xadimlər Nəriman Nərimanov, Əziz Əliyev haqqında da tələbələrə məlumatlar verildi.

Qeyd edək ki, "Zərifə Əliyeva – nur bəxş edən alim!" mövzusundakı bu toplantı Azərbaycan Respublikası Prezdidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə keçirilib. Layihə ATU-nun Tələbə Gənclər Təşkilatının II müalicə-profilaktika fakültəsi üzrə sədri Fidan Bəylərovanın ideyası nəticəsində reallaşıb.

# Stomatologiya fakültəsində tələbələrlə toplantı keçirilib

**Dekadrın 17- də stomatologiya fakültəsində qrup nümayəndələri ilə ikinci genişləndirilmiş toplanti keçirilib. Toplantıda stomatologiya fakültəsinin bütün kurslar üzrə qrup nümayəndələri, xarici tələbələr üzrə dekan t.ü.f.d. Orxan İsayev və "Texno Park" MMC şirkətinin əməkdaşları qonaq qismində iştirak ediblər.**



Görüşdə "Texno Park" MMC şirkətinin nümayəndələri təmsil etdikləri qurumun iş fəaliyyəti haqqında tələbələri məlumatlandırıblar. Qeyd olunub ki, bu şirkət kiçik və orta elmitutumlu innovasiya şirkətlərinin inkişafı üçün maksimum əlverişli mühitin formalaşdığı elmi-istehsalat kompleksi kimi elmi fəaliyyətin nəticələrinin məhsula çevrilməsi və bazara çıxarılması ilə məşğul olur. Sonda şirkət təmsilçiləri tələbələri maraqlandıran sualları cavablandırıblar.

Sonra dekan dosent Səid Əhmədov tələbələrə qarşıdan gələn imtahan sessiyası haqqında ətraflı məlumat verib. O, qeyd edib ki, imtahan sualları internetdə yerləşdirilib, tələbələr istənilən vaxt suallarla tanış ola bilər: "Yuxarı kurs tələbələrinin diqqətinə çatdırım ki, əvvəlki illərdən fərqli olaraq, imtahan sualları azalıb və səhv cavab düz cavabı silmir. Hər biriniz imtahan mərkəzinə gedib özünüzü yoxlaya bilərsiniz. Bunu da nəzərinizə çatdırım ki, imtahan günlərində bütün tələbələr imtahan saatından 15-20 dəqiqə əvvəl VTM-də olmalıdırlar".

Bundan başqa tələbələri maraqlandıran digər sualları da cavablandıran dekan onların problemlərinin həlli üçün lazımi tövsiyyələr verdi.

S. Əhmədov çıxışının sonunda tələbələri qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə təbrik etdi, onlara imtahan sessiyasında uğurlar arzuladı.

Sonra dekan müavini t.ü.f.d Kamran Babayev çıxış edərək qrup nümayəndələrinin vəzifələrinin məsluliyyətindən danışdı: "Qruplarda dekanlığın təmsilçisi olaraq aktiv fəaliyyət göstərin, kiminsə haqqının tapdanmasına imkan verməyin. Əgər tələbə haqlı olarsa lazım gələndə onu müdafiə edin. Bu və digər məsələlərlə bağlı qrupda problemlər baş verərsə, dərhal dekanlığa məlumat verməyinizi xahiş edirəm".



Görüşdə fakültənin tədris məsləhətçisi Qələndər Aslanov da iştirak edirdi.

**ATU-nun mətbuat xidməti**

# Əcnəbi tələbələr ATU-da milli kulinariyamız ilə yaxından tanış oldular

**Azərbaycan Tibb Universitetində "İslam Həmrəyliyinin Kulinariyası" layihəsi çərçivəsində tədbir keçirilib. Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi və ATU-nun tərəfdaşlığı ilə baş tutan tədbirdə universitetdə təhsil alan əcnəbi tələbələr iştirak edib.**




Universitetin tələbəsi, layihə rəhbəri Rauf Vəliyev layihənin məqsəd və məramı barədə ətraflı məlumat verib. O, bu ilin "İslam Həmrəyliyi İli" elan olunduğunu xatırladıb. Bununla əlaqədar Azərbaycan Gənclər Fondunun maliyyə dəstəyi ilə bir çox istiqamətlərdə müxtəlif tədbirlərin keçirildiyini vurğulayıb. Yeni layihənin də bu silsilədən növbəti tədbir olduğunu qeyd edib: "Məqsəd bu layihə çərçivəsində milli mətbəximizin universitetdə oxuyan əcnəbi tələbələrə yaxından tanıdılmasıdır. Buna səbəb milli mətbəximizə aid olan nümunələri özününküləşdirən bədnam qonşumuz ermənilərin məkrli niyyətlərinin qarşısını almaqdan ibarətdir. Bu tədbirin baş tutmasına görə, Azərbaycan Gənclər Fondu və Azərbaycan Tibb Universitetinin rəhbərliyinə təşəkkürümü bildirirəm".

Tədbirdə çıxış edən tələbələr - Əminə Fərzəlizadə, Aynur Sərdarova, Nigar Əfəndiyeva, Şəmsi Axundov təkcə Azərbaycan mətbəxinin zənginlikləri, təamların necə hazırlanması ilə bağlı deyil, həmçinin ölkəmizin tarixi, coğrafiyası, təbiəti, mədəniyyəti, tarixi abidələri, müalicə əhəmiyyətli kurortaları və s. barədə də iştirakçılara ətraflı məlumat veriblər.

Tədbirdə nümayiş etdirilən bir neçə dəqiqəlik video-rolik əcnəbi tələbələrdə milli mətbəximiz haqda ətraflı təəssürat yarada bilib.

Sonda əcnəbilər dəhlizdə mətbəximizə aid olan dolma, ləvəngi, plov, dovğa və s. yeməklərin tamına baxmaq imkanları əldə ediblər. Onlar Azərbaycanın milli mətbəxinin zənginliyindən, yeməklərin ləzzətli və dadlı olmasından ağızdolu danışıblar.

**Q.ABDULLAYEV**

# ATU-nun Tədris Cərrahiyyə Klinikası hesabat verdi

**ATU-nun Tədris Cərrahiyyə Klinikasında bu tibb müəssisəsinin ilin yekun hesabatına həsr olunmuş konfrans keçirilib.**



Konfransın açılışında çıxış edən klinikanın direktoru, professor Surxay Hadıyev 2017-ci ilin Azərbaycan üçün uğurlu keçdiyini bildirib. S.Hadıyev yola saldığımız ilin rəhbərlik etdiyi qurum üçün də kifayət qədər uğurlu olduğunu qeyd edib: "İl boyunca klinikamızda bir sıra unikal, mürəkkəb əməliyyatlar aparılıb. Bunlardan bəziləri hətta respublikada ilk dəfə olaraq bizim klinikada icra olunub. Sevindirici haldır ki, bu cür əməliyyatların nəticəsi uğurlu olub. Bu il, həmçinin 5 kafedrada müdir vəzifələrinə seçkilər keçirilib".

Tədbir iştirakçılarını qarşıdan gələn Yeni il və Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə təbrik edən S.Hadıyev, hər kəsə



möhkəm cansağlığı, yeni ildə daha böyük nailiyyətlər arzu edib.

Sonra direktorun tədris və elmi məsələlər üzrə müavini, professor Davud Pənahov 2017-ci ildə klinikada tədris sisteminin təkmilləşdirilməsi üçün görülən işlər haqqında geniş məlumat verib: "Cari tədris ilində TCK-da tələbələrə 140 axın və 348 qrupda tədris aparılıb. Dərslər əsasən-100 qrupda Azərbaycan, 25 qrupda rus, 15 qrupda isə ingilis dilində tədris olunub. Mühazirələr 7 auditoriyada, təcrübi məşğələlər 60 otaqda keçirilir ki, onlar da köməkçi vasitələrlə təchiz olunub".

TCK-nın müalicə işləri üzrə direktor müavini–baş həkim, professor Rauf Ağayev 2017-ci ildə klinika üçün yeni struktur cədvəlinin işləndiyini qeyd edib: "Yeni cədvəl bu ilin yanvarında rektorluq tərəfindən təsdiqlənib. Bu struktur dəyişikliklərinə əsasən, klinikada yeni-neonatologiya, plastik və estetik cərrahiyyə şöbələri yaradılıb. Bundan əlavə klinikada tibbi koordinasiya şöbəsi yaradılıb və tərkibinə müştəri xidmətləri ilə məşğul olan bütün bölmələr, o cümlədən sığorta və tibbi statistika da daxil edilib. Təcili yardım və qəbul şöbəsi birləşdirilib. Sterilizasiya bilavasitə əməliyyat blokunun bir bölməsi kimi müəyyən edilib".

Baş həkim, həmçinin 2016-cı il ilə 2017-ci ilin yekunlarını müqaisə edərək, klinikada bi çox göstəricilər üzrə müsbət tendensiyanın müşahidə olunduğunu bildirdi: "Təəssüf ki, bu müddət ərzində xəstələrin sayı artıb. Biz insanların öz sağlamlığını daha yaxşı qorumasını istəyirik. Əvvəlki illə müqayisədə klinikaya 30 faiz daha çox xəstə müraciət edib. Biz xəstələrə yüksək səviyyəli tibbi xidmət göstərməyə çalışmışıq. Ötən ilə nəzərən bu il keçirilən cərrahiyyə əməliyyatlarının sayı–40 faiz, stasionar yatış olan xəstələrin sayı isə 70 faizə qədər artıb".

R.Ağayev bu il klinikanın sığorta şirkətləri ilə əlaqələrinin sıxlaşdığını, şüa diaqnostikası şöbəsində yeni USM otağı yaradıldığını, təcili yardım şöbəsinə yeni həkimlər cəlb olunduğunu, burada hamilə qadınlar və körpələrə baxış üçün xüsusi otaq ayrıldığını qeyd edib.

Tədbirdə klinikanın bu il ərzində fəaliyyətinə və əldə olunan nailiyyətlərə dair digər məlumatlar da dinlənilib.

# HACIBALA PİRİ OĞLU BƏDƏLOV

**ATU-nun fizioterapiya və idman təbabəti kafedrasına ağır itki üz vermişdir. Kafedranın dosenti Bədəlov Hacıbala Piri oğlu bu günlərdə dünyasını dəyişmişdir.**



Hacıbala Bədəlov 1930-cu ildə İmişli rayonunda doğulmuşdur. Orta məktəbi əla qiymətlərlə başa vuraraq 1948-ci ildə Azərbaycan Dövlət Tibb institutunun (indiki ATU) müalicə-profilaktika fakültəsinə qəbul olmuş, ali tibb təhsilini 1954-cü ildə fərqlənmə diplomu ilə bitirmişdir.

Təyinatla respublikamızın müxtəlif rayonlarında sıravi həkim və baş həkim vəzifələrində çalışan Hacıbala Bədəlov 1964-cü ildə aspiranturaya daxil olmuş və 1968-ci ildə tibb elmləri namizədi alimlik dərəcəsi almışdır.

O, 1967-ci ildən fizioterapiya kafedrasında baş laborant kimi iş fəaliyyətinə başlamış, sonra müsabiqə yolu ilə fizioterapiya kafedrasının assistenti, kursun və kafedranın müdiri seçilmişdir.

1970-ci ildən 1991-ci ilədək Azərbaycan Səhiyyə Nazirliyinin fizioterapiya və kurortologiya üzrə baş məsləhətçisi olmuşdur.

1976-cı ildə dosent elmi adı alan, 1980-ci ildə isə "Səhiyyə əlaçısı" nişanı ilə təltif edilən Hacıbala Bədəlov 1991-ci ildə "Azərbaycanın əməkdar həkimi" fəxri adına layiq görülmüşdür.

H.Bədəlov 1994-cü ildən 1997-ci ilədək 2 saylı Bakı Baza Tibb Məktəbinin direktoru vəzifəsində işləmiş, son vaxtlaradək fizioterapiya və I daxili xəstəliklər kafedrasının dosenti olaraq çalışmışdır.

Uzun illər Azərbaycan Dövlət Televiziyasında populyar olan "Sağlamlıq" verilişinin aparıcısı olan H.Bədəlov elmi-praktiki fəaliyyəti dövründə 10-dan çox monoqrafiyanın müəllifi olmuşdur. Bunlardan "Fizioterapiyadan dərs vəsaiti", "Həkim, xəstə, inam", "İnsanın ömür yolu", "Azərbaycanın kurort sərvətləri" kitabları cəmiyyətimizdə sevilən əsərlər sırasındadır.

Hacıbala müəllimin işıqlı xatirəsi çalışdığı kollektivin və onu tanıyanların yaddaşında əbədi yaşayacaqdır.

**Allah rəhmət eləsin, qəbri nurla dolsun!**

*Fizioterapiya və idman təbabəti kafedrasının əməkdaşları*

# Damar cərrahiyyəsində inanılmaz uğurlar

**Tədris Cərrahiyyə Klinikasında istənilən sahə üzrə peşəkar həkimlər pasiyentlərə xidmət göstərir. Klinikada damar cərrahiyyəsi ilə bağlı da mütəxəssis həkimlərimiz istənilən növ problemlərin aradan qaldırılması üzrə fəaliyyət göstərirlər. Onlardan biri, tibb elmləri namizədi Lalə Lətifova damar cərrahiyyəsində bir çox xəstəliklərin müalicəsi üzrə yüksək səviyyəli xidmət təqdim edir.**



Lalə Lətifovanın sözlərinə görə, hazırda klinikada iki müxtəlif dalğa uzunluqlu "LAXTA MİLON" ("ЛАХТА-МИЛОН") lazer aparatından istifadə olunur: "0,97 mkm dalğa uzunluqlu cərrahi lazerdən istifadə qanaxmanı, infeksiya riskinivə eləcə də əməliyyat və əməliyyatdan sonrakı ağrıları azaldır, sağalma müddətini qısaldır. Bu növ lazerlə damar displaziyaları, kavernoz hemangiomalar, arterio-venoz displaziyalar, limfangiomalar, üzdə və ayaqlarda kapillyar kavernoz teleangioektaziyalar, dodaqların angioması kimi patologiyalar müalicə edilir".

0,97 mkm dalğa uzunluqlu cərrahi lazer aparatı ilə rezeksiya, koaqulyasiya, vaporizasiya, interstitsial hipertermiya kimi əməliyyatları icra etmək mümkündür.

L.Lətifovanın sözlərinə görə, bu lazer aparatı ilə həmçinin dermatologiyada bəzi əməliyyatlar aparılır, dəridəki problemlər aradan qaldırılır. Bunlara dərinin papilloma və fibromaları, xallar, ateromalar, vulqar ziyillər, kondilomalar, kontagioz mollyusk, kelloid və hipertrofik çapıqları aid etmək olar.

Eyni zamanda, 1,47 mkm dalğa uzunluqlu lazer aparatı da müxtəlif üstünlüklərə malikdir. Bu aparatla damarların endovazal lazer koaqulyasiyası (EVLK) əməliyyatı aparılan zaman əməliyyatın təhlükəsizliyi təmin olunur: lazer şüaları sinir uclarını zədələmədən lokal təsir göstərir. Həmçinin, minimal travmatik və maksimal kosmetik effekt əldə olunur. Lazer aparatı ilə əməliyyat daha qısa müddətdə başa çatır. Minimal ağrı sindromu əməliyyatı yerli anesteziya ilə aparmağa imkan verir. Xəstənin iş qabiliyyəti 1-3 gündən sonra tam bərpa olunur.

Fotolarda dalğa uzunluğu 0,97 mkm olan LAXTA MİLON" ("ЛАХТА-МИЛОН") tibbi lazer aparatının istifadəsindən nümunələr təqdim olunur. Göründüyü kimi, bu aparatdan üst dodağın yuxarısında piqment ləkəsinin aparılması, kürəkdə dermatofibromanın ləğv olunması, üzdəki çapıqlar, damar kuperzolarının effektiv surətdə aradan qaldırılmasına dair nümunələr verilib.

**ATU-nun mətbuat xidməti**

# ATU-nun məşqçisi Dünya Çempionatında hakimlik edib

**Bu il dekabrın 9-10-da Rusiyanın Yekaterinburq şəhərində Kyokuşin Dünya Birliyinin (KWU) təşkilatçılığı ilə Kyokuşin Karate üzrə kişilər və qadınlar arasında dünya çempionatı keçirilib. Çempionata 48 ölkənin 242 idmançısı və 24 ölkədən xüsusi dəvət olunmuş beynəlxalq dərəcəli hakimlər qatılıb.**




Azərbaycanı bu möhtəşəm çempionatda hakim qismində ATU-nun "Təbib" idman klubunun məşqçi-müəllimi, beynəlxalq dərəcəli hakim, əməkdar məşqçi Qələndər Aslanov təmsil edib. 2012-ci ildə "Avropanın ən yaxşı hakimi" seçilən ədalət təmsilçimiz Q.Aslanov Kyokuşin Dünya Birliyinin hakimlər kollegiyasının rəsmi üzvü seçilib. Təmsilçimiz ənənəvi olaraq çempionatdan əvvəl seminarlarda iştirak edib, seminarların son günü test və praktiki imtahanlardan keçərək "mükəmməl" dərəcəli balla qiymətləndirilib. Qələndər Aslanov KWU təşkilatının xüsusi sifarişi ilə hazırlanmış qol saatı və qiymətli hədiyyələrlə mükafatlandırılıb.

Bu çempionatda Azərbaycan Kyokuşin Karate Federasiyasının yığma komandasının 7 idmançısı da öz gücünü sınayıb. Nəticədə 65 kq və 70 kq da döyüşən idmançılarımız Emin İsmayıllı və Valeh Cəfərov dünya çempionatının bürünc medalına layiq görülüblər. Digər 5 idmançımız isə medala çox yaxın olsalar da, 1/8 final mərhələsində mübarizəni dayandırmalı olublar.

**Bakı İdman Sarayında sərbəst və yunan-Roma güləşi üzrə böyüklər arasında Azərbaycan çempionatı başa çatıb.**



Son iki yarış günündə 57, 61, 65, 70, 74, 79, 86, 92, 97 və 125 kq-a qədər çəki dərəcələrində sərbəst güləşçilər mübarizə aparıb. Ümumilikdə 212 sərbəst güləşçinin mübarizə apardığı çempionat gərgin və maraqlı görüşlərlə yadda qalıb.

Bu yarışda Azərbaycan Tibb Universitetinin mühafizə şöbəsinin mühafizəçisi, Zenit İdman Cəmiyyətini təmsil edən Mahir Əliyev də uğurlu nəticə göstərmiş, rəqibinə 6:0 hesabı ilə qalib gələrək bürünc medala layiq görülmüşdür.

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR:

**Fakültənin dekanı:**

- Stomatologiya fakültəsi

**Kafedraların müdirləri:**

Neyrocərrahlıq kafedrası
Ağız və üz-çənə cərrahiyyəsi kafedrası
Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrası

**Kafedranın professoru:**

- Urologiya kafedrası - 1 yer (0,5 vahid)

**Kafedranın dosenti:**

- Ümumu cərrahlıq və anesteziologiya kafedrası - 1 yer

**Kafedraların assistentləri:**

İnsan anatomiyası kafedrası - 1 yer
Onkologiya kafedrası - 1 yer (0,5 vahid)

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**

**AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi, 14**
**Telefon: 597-10-08, 597-41-69, 597-43-23 .**

## DİQQƏT!
### Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə!

**2017-2018-ci tədris ilindən başlayaraq, kafedralar üzrə vakant yerləri tutmaq üçün müsabiqədə iştirak edənlər Elmi katibliyə aşağıdakı sənədləri təqdim etməlidirlər:**

1. Rektorun adına ərizə
2. Kadrlar uçotunun şəxsi vərəqəsi
3. Kafedradan verilmiş xasiyyətnamə. Xasiyyətnaməni kafedranın müdiri və qrup həmkarlar təşkilatının sədri imzalamalıdır. Xasiyyətnamənin müsbət və ya mənfi olması, o cümlədən bu şəxsin yeni müddətə kafedrada çalışıb və ya çalışmaması əsaslandırılmalıdır. Kafedra müdiri vəzifəsinə iddiaçılara xasiyyətnaməni fakültənin dekanı və həmkarlar təşkilatının sədri imzalamalıdır.
4. Xüsusi formada tərtib edilmiş tərcümeyi-halın çap forması və elektron variantı. Burada şəkil, ad, soyad, bitirdiyi məktəblər, elmi ad və dərəcələr, bildiyi dillər, bildiyi kompüter proqramları, çap olunmuş işlərin sayı, işlədiyi yerlər, hazırkı vəzifədə neçə il çalışması, niyə bu vəzifədə yenidən seçilmək istəməsi, olduğu ixtisasartırma kursları, ailə vəziyyəti, ünvan və telefonu göstərilməlidir.
5. ATU-nun Klinika və Laboratoriyalarında çalışanlar üçün son beş ilin həkimlik fəaliyyəti barədə klinikadan verilmiş arayış. Arayış klinikanın direktoru və həmkarlar təşkilatının sədri tərəfindən imzalanmalıdır.
6. Son beş il ərzində çap olunan elmi işlərin siyahısı və sürətləri. Siyahı müəllif və kafedra müdiri tərəfindən imzalanmalıdır.
7. Açıq mühazirənin və ya açıq təcrübi dərsin videoçəkilişinin diski.
8. Şəxsiyyət vəsiqəsinin surəti

**Qeyd:** ***ATU-nun əməkdaşı olmayan mütəxəssislər siyahıdakı 3-cü, 5-ci və 7-ci bənddəki sənədlərin əvəzinə, sonuncu iş yerindən verilən xasiyyətnamə, işlədiyi klinikadan həkimlik fəaliyyəti barədə arayış və əmək kitabçasından çıxarışı təqdim etməlidir.***

### Allah rəhmət eləsin!

Ortopedik stomatologiya kafedrasının əməkdaşları kafedranın assistenti Mehmani Vüsaləyə atası **Rasim müəllimin** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Qidalanma və kommunal gigiyena kafedrasının əməkdaşları kafedranın assistenti Avaxanım Vəlibəyovaya qaynatası **Darvin Vəlibəyovun** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ETM- in əməkdaşları iş yoldaşları Sevinc Şahməmmədovaya əmisi **Rəcəb Həmzəyevin** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Yoluxucu xəstəliklər kafedrasının əməkdaşları kafedranın baş laborantı Alidə Mətiyevaya qaynı **Söhbət Mətiyevin** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ATU-nun 4 saylı yataqxanasının sakinləri yataqxananın komendantı Polad Məmmədova qardaşı **Zəfər Məmmədovun** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

# Tələbələr üçün konsert təşkil olunub

**Dekabrın 21-də Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibəti ilə Azərbaycan Tibb Universitetinin Tələbə Həmkarlar İttifaqı Komitəsi (THİK) tərəfindən tələbələr üçün təntənəli tədbir təşkil olunub.**



Tələbələrin asudə vaxtlarının səmərəli keçirilməsi üçün Rəşid Behbudov adına Dövlət Mahnı Dram Teatrında bayram konserti keçirilib. Tədbirin rəsmi hissəsində ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Elvin Kərimli çıxış edib. O, THİK-də aktiv fəaliyyəti ilə seçilən tələbələrə təşəkkür edib: "Təşkilatın fəal üzvlərinin olması çox önəmlidir: Lakin bizim işimiz təkcə təhsil-tədrislə bağlı deyil. Biz həm də tələbələrimizin asudə vaxtının



daha səmərəli və maraqlı keçməsi üçün çalışırıq. Bu günkü tədbir də məhz bu qəbildən olan tədbirdir". E.Kərimli tələbələri qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibəti ilə təbrik edib, onların hər birinə cansağlığı və dərslərində uğurlar arzulayıb.

Konsertin ədəbi hissəsində isə tanınmış sənət adamları, musiqiçilər, rəqs ansamblları iştirak ediblər. Mərasimdə populyar mahnılarla yanaşı, bir sıra simfonik əsərlər səslənib, xoreoqrafik nömrələr nümayiş etdirilib.

Bayram konserti gənclərin ürəyincə olub.

Qeyd edək ki, tədbirdə ATU-nun 360 tələbəsi iştirak edib. Onlardan 40 nəfəri əczaçılıq fakültəsinin, 90 nəfəri I müalicə-profilaktika fakültəsinin, 90 nəfəri II müalicə-profilaktika fakültəsinin, 70 nəfəri stomatologiya fakültəsinin, 40 nəfəri ictimai səhiyyə fakültəsinin, 30 nəfəri isə hərbi tibb fakültəsinin tələbələri olub.

### Etibarsız sayılır

ATU-nun hazırlıq şöbəsinin dinləyicisi Rizai Aidin Saeid oğluna Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş müvəqqəti yaşamaq üçün icazə vəsiqəsi itdiyi üçün etibarsız hesab sayılır.

Əsgərov Qulam Adilşah oğluna 2005-ci ildə Azərbaycan Tibb Universiteti tərəfindən dermatovenorologiya ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Hərbi tibb fakültəsinin II kurs, 1127[b] qrup tələbəsi Əzizzadə Elmir Başarəddin oğlunun oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin III kurs, 5[a] qrup tələbəsi Hamza Taşpnarın adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin I kurs, 717[a-3] qrup tələbəsi Məmmədzadə Məryəm İlham qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibasız sayılır.

Məmmədzadə Kəmaliyə Aydar qızına 2013-cü ildə Azərbaycan Tibb Universiteti tərəfindən verilmiş sertifikat itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin I kurs, 317[a-16] qrup tələbəsi Yılmaz Ela Bülənt qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

### Tibb aləmində

# Tibb alimləri yuxusuzluğa qalib gəlmənin yollarını müəyyən ediblər

**Kolumbiya Universitetinin Tibb Mərkəzi yuxusuzluğa qalib gəlmənin yollarını müəyyən edib. Alimlər axşam saatlarında smartfonlardan və planşetlərdən imtina etməyi təklif etmir, çünki bu, müasir dövrdə insanlar üçün real deyil. Lakin onlar dərin yuxu üçün zərərli olan və mavi işıq buraxan ekrana kəhrəba rəngli eynəklərlə baxmağı məsləhət görürlər. Mobil cihazların ekranının mavi işığı beyində melatonin (yuxu gətirici) yaramasının qarşısını alır və diqqəti artırır.**



AZƏRTAC MedDaily saytına istinadla verir ki, rəngli eynəklər bu işıq spektrinin qarşısını alır. Bu, yuxusuzluqdan əziyyət çəkən 14 insanın üzərində aparılan eksperimentlə sübut olunub. Onlar yatmazdan əvvəl, yeddi axşam ard-arda və iki saat müddətində həm adi şüşədən olan, həm də rəngli eynəklərdən istifadə ediblər. Dörd həftə sonra hər şey təkrar olunub, lakin könüllülərin eynəkləri dəyişdirilib. Bununla yuxunun keyfiyyəti və müddəti qeydə alınıb.

Müəyyən edilib ki, rəngli eynəklər təxminən 30 dəqiqəlik əlavə yuxu təmin edir. Könüllülər də yuxunun müddəti və dərinliyinin artdığını, keyfiyyətinin yaxşılaşdığını təsdiq ediblər. Ümumilikdə, onlar yuxusuzluqla bağlı vəziyyətlərinin yaxşılaşdığı qənaətindədir. Yeri gəlmişkən, rəngli linzalar könüllülərin göz təzyiqinin azalmasına da kömək edib.

# Təkcə ürəyimiz yananda yox, adi vaxtda da...

**Çay həyatımızın ayrılmaz bir parçasına çevrilib. Statistika göstərir ki, sudan sonra ən çox içilən çaydır. Çay təkcə susuzluğu yatırmır, həm də çox böyük müalicəvi əhəmiyyət daşıyır.**



Çay orqanizmi stimullaşdırmaq, tonusu qaldırmaq ucun ən yaxşı vasitələrdən biri sayılır. Çində aparılan qazıntılar zamanı çayın həmin ölkədə 5 min il bundan əvvəl istifadə edildiyi aşkar olub. İlk vaxtlar ondan 72 zəhərə qarşı dərman kimi istifadə edirdilər.

Hazırda Yaponiyada yoluxucu xəstəliklər zamanı da çaydan istifadə edilməsi üzərində araşdırmalar aparılır. Dünya əhalisinin 90 faizinin çay içdiyi məlumdur.

Çaydan xalq təbabətində bir sıra xəstəliklərin müalicəsi üçün geniş istifadə olunur. Gözün iltihabı proseslərində və konyunktivit zamanı dəmlənilmiş çayı islatma şəklində qoyulması çox faydalı təsir göstərir.

Tərkibində aşı maddələri çox olduğuna görə, mədə-bağırsaq xəstəlikləri zamanı da ondan istifadə etmək səmərəli nəticələr verir.

Hipertoniya xəstəliyi zamanı da çay içilməsi təcrübəsi geniş yayılıb. Təzyiqi yuxarı olanlar yaşıl, aşağı düşənlər qara çaydan istifadə edirlər.

Böyrək xəstəliyi zamanı, xüsusilə böyrəkdə daş olanda itburnu qəbul edilməsi qətiyyən düzgün deyil, əksinə, onun daş yaratmaq ehtimalı var. Həmin hallarla üzləşənlərin qatırquyruğu və kərəviz çayı içməyi daha məqsədəuyğundur. Kərəviz pörtlədiləndən sonra üzərinə limon suyu və zeytun yağı əlavə edilib yeyilməsi böyrək daşının parçalanmasına daha yaxşı təsir edir.

Kəklikotu çayında da bakterisid keyfiyyətlər var. Soyuqlama zamanı onu dəmləyərək buğunun qəbul edilməsi baş-beyin nahiyəsindəki seliyin axıb tökülməsinə səbəb olur.

Professor çayın dəmlənilməsi barədə də məlumat verib. Onun sözlərinə görə, 1 litr suya 3 çay qaşığı çay atmaq kifayətdir. Dəmlənilmiş çayın əvvəl suyun üzünə, sonra dibinə çökməsi onun daha keyfiyyətli olmasını göstərir. Professorun dediyinə görə, çay dəmlənəndən 1 saat sonra onun keyfiyyəti itir. Ona görə də yaxşı olar ki, hər dəfə çay təzədən dəmlənilsin.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98[c]
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 3000